# MARNEULI MUNISIPALITETINDƏ QADINLARDAN IBARƏT KƏND TƏSƏRRÜFATI KORPORATIVLƏRINƏ DƏSTƏK PROQRAMI

*Maraq ifadəsi müsabiqəsi*

2022-CI IL

# LAYIHƏ HAQQINDA

| | |
|---|---|
| **Donor** | HEKS-EPER |
| **Layihənin adı** | „İqlimə davamlı Kənd təsərrüfatı - PRAİSE MARNEULI” |
| **Müddət** | 4 il, 2021-ci il yanvar – 2024-ci il dekabr |
| **Layihəni həyata keçirən** | CENN |
| **Layihənin coğrafi arealı** | Marneuli Munisipaliteti |

“İqlimə davamlı kənd təsərrüfatı – PRAİSE Marneuli„ 4 illik layihədir. CENN layihəni 2021-ci ildən HEKS-EPER-in maliyyə dəstəyi ilə həyata keçirir. Layihənin məqsədi Marneuli Munispalitetində əhalinin gəlir imkanlarını artırmaq, iqlimə qarşı dost və davamlı kənd təsərrüfatını tətbiq,inkişaf etdirmək və məşhurlaşdırmaqdır. Layihə İnsan hüquqlarına əsaslanan yanaşmaları (HRBA) nəzərə almaqla, Marneuli Munisipalitetində mövcüd olan icma institutlarına, fermerlərə, qadınlara, gənclərə, yerli maraqlanan tərəflərin gücləndirilməsinə yönəlib.

**Layihə fəaliyyətini növbəti istiqamətdə həyata keçirir:**

**Munisipalitet səviyyəsində İqlimə Davamlı Kənd Təsərrüfatı təcrübəsinin tətbiq edilməsi mexanizimlərini formalaşdırmaq:** Dövlət, mülki və özəl sektorun cəlb olunduğu Çoxşaxəli işçi qrupu (MSWG) yaradıldı, yerli məzmuna, əhalinin ehtiyaclarına və prioritetlərinə uyğun İqlimə Davamlı Kənd Təsərrüfatı haqda çərçivə sənəd və iqlim dəyişikliyinə uyğunlaşma planı hazırlandı.

**İqlimə Davamlı Kənd Təsərrüfatı təcrübəsinin və insan haqlarına əsaslanan yanaşmaların (HRBA) tətbiq edilməsi məqsədilə icma institutlarının və yerli maraqlı tərəflərin gücləndirilməsi:** Tematik təlimlərın, seminarların, sahə günlərinin, təhsil səfərlərinin, görüşlərin, müzakirələrin, gənclərdən ibarət yaşıl düşərgələrin, media səfərlərin həyata keçiriləcəyi İmkanların inkişafı proqramı yaradıldı.

**Gəlir yaratma imkanlarının inkişafına dəstək və yaşayış şərtlərinin gücləndirilməsi məqsədilə** yerli təşəbbüslər maliyyələşdiriləcək və qadınlardan ibarət kənd təsərrüfatı korporativi yaradılacaq.

# MÜSABIQƏNIN MƏQSƏDI VƏ VƏZIFƏLƏRI

Müsabiqənin məqsədi Marneuli Munisipaliteti miqyasında  yerində gəlir əldə etmək imkanlarını və yerli etnik qruplar arasnda əməkdaşlığı artıracaq kənd təsərrüfatı sahəsində korporativlərə şərait yaratmaqdır.

Qadınlardan ibarət kənd təsərrüfatı korporativlərinin yaradılması və onun imkanların gücləndirilməsi tədbirləri vasitəsilə institusional inkişafı  (təlimlər, seminarlar, görüşlər);

- *Qadınlardan ibarət korporativlərin fəaliyyətinə və ehtiyaclarına maliyyə dəstəyi verməklə faliyyətlərini asanlaşdırmaq.*

**Mümkün istiqamətlər:**

- ✓ *İlkin istehsal*
- ✓ *Təkrar emal*
- ✓ *Qiymətləndirmək*
- ✓ *Qablaşdırma*
- ✓ *Saxlanılma*
- ✓ *Çatdırılma*

# MÜSABIQƏDƏ IŞTIRAK ŞƏRTLƏRI:

Müsabiqədə Marneuli Bələdiyyəsinin hər yerindən kənd təsərrüfatı istehsalında təcrübəsi olan ən azı 9 qadından ibarət qruplar iştirak edə bilər. Qrup üzvlərinin ən azı 70 % (9 üzvdən ibarət korporativ olarsa 6 üzv) etnik azlıqların nümayəndələri olmalıdır. Müsabiqədə artıq mövcüd olan, qeydiyyatda olan kənd təsərrüfatı korporativləri iştirak edə bilməz.

# HƏYATA KEÇIRILMƏ ŞƏRTLƏRI

Müsabiqə çərçivəsində bir qrup seçiləcək, dövlət reyestrində qeydiyyatdan keçərək, rəsmi olaraq kənd təsərrüfatı korporativi kimi fəaliyyətə başlayacaq. 2022-ci ilin sonuna qədər yeni yaradılmış korporativ üzvləri üçün kənd təsərrüfatı korporativlərinin idarəedilməsi və fəaliyyəti üzrə  imkanların inkişafı tədbirləri həyata keçiriləcək (təlimlər, görüşlər, təhsil-tanışlıq turları).

2023-cü ildə korporativlər üçün maliyyə dəstəyi (maks. 18000 lari) ediləcək. Layihə tərəfindən maliyyə yatırımı korporativin ehtiyaclarının təmin olunmasına sərf ediləcək ( istehsal vasitələri ( dövriyyə kapitalı istisna olmaqla), maşın, avadanlıq, tikililərin bərpası və s.).

Qeyd etmək vacibdir ki, maliyyə yatırımı iqlim dəyişikliyinə qarşı davamlı kənd təsərrüfatı təcrübəsinə

müvafiq olmalı və iqlim dəyişikliyinə qarşı uyğunlaşma mexanizmlərinin tətbiq edilməsinə şərait yaratmalıdır.

Layihəni gedişatı zamanı və bitdikdən 1 il ərzində layihə nümayəndələri tərəfindən korporativlərin fəaliyyətinin monitorinqi həyata keçiriləcəkdir.

## MÜRACIƏT FORMASI

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2022-ci il 20 may saat 18:00-dək, müraciət formasını dolduraraq qeyd olunan sopiko.babalashvili@cenn.org elektron poçt ünvanına göndərə bilərlər. (Xahiş edirik, elektron poçtun başlığında " Korporativlər müsabiqəsi" yazasınız).

Müraciət etmək istəyən şəxslər, növbəti sənədləri təqdim etməlidirlər

- *Əlavə 1 – Ərizə forması*
- *Əlavə 2 – Qrup üzvlərinin istifadəsində, əmlakında olan kənd təsərrüfatı fəallıqlarının ( torpaq sahəsi, tikili, avadanlıq) şəkili və əmlakı təsdiq edən sənədlər.*

## SEÇIM PROSESI VƏ MEYARLAR

Daxil olan ərizə formalarının müzakirəsi üçün 5 nəfərdən ibarət seçim komissiyası yaradılacaq (CENN-in nümayəndələri). Ərizə formaları növbəti meyarlar əsasında qiymətləndirləcək:

- *Müsabiqədə iştirak şərtlərinə uyğunluq (ən azı 9 nəfərdən ibarət qrup, ən azı 70% etnik azlıqlardan ibarət);*
- *Kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində bilik və təcrübə;*
- *Əsaslandırılmış birgə ehtiyac;*
- *Güclü motivasiya və davamlılıq ( layihə başa çatdıqdan sonra koporativlərin davamlı fəaliyyət göstərəcəyi haqda plan);*
- *Tələb və təqdim olunan sənədlərin tam olması*

# ƏLAQƏ MƏLUMATI

Əlaqədar şəxs:

**Sofiko Babalaşvili**
kənd təsərrüfatı ofiseri
(sopiko.babalashvili@cenn.org)

**Nilüfər Qurbanova**
Fermerlərin Səfərbərliyi və İmkanların İnkişafı koordinatoru
(nilufer.kurbanova@cenn.org)
T: +995 599 02 30 90

HEKS EPER

ვამაყობთ მრავალფეროვნებით

CENN
Shaping the Future by Changing Today